# YURD NİSGİLLİ XATİRƏLƏR,

## yaxud sonu aydınlıqla bitən yuxu



Bu yaxınlarda əslən Qarabağ bölgəsindən, Cəbrayıl rayonundan olan, hazırda ömrünün ixtiyar çağını yaşayan 83 yaşlı Səxavət Talıboğlunun (Rəhimov) "Geridə qalan ömür" adı növbəti kitabı işıq üzü görüb. Bu kitabda əsasən doğulduğu vaxtdan bu yana özünün qayğısız uşaq dünyasını yaşamaq əvəzinə, atasız yaşadığı çətinliklərdən, lap uşaq yaşlarından, erkən yeniyetməlik çağlarından yaşamaq uğrunda atıldığı, daha doğrusu, özündən üç yaş böyük qardaşı ilə içərisinə atılmağa məcbur olduğu amansız mübarizə, həyatın onlara göstərdiyi, ağ demirəm, ağımtıllı, bozlu-qaralı sifəti əks etdirən xatirələr, həmçinin son illərdə yazdığı şeirlər yer alıb.

Səxavət Talıboğlu hələ lap gənc yaşlarından ədəbi yaradıcılığa, xüsusilə də poeziyaya maraq göstərsə də, düşüncələrini, duyğularını qələmə almaqdan çəkinib. Belə ki, S.Talıboğlu hələ ana bətnində ikən atası Talıbı, bizim də 70 il tərkibində olduğumuz keçmiş SSRİ dövründə "Böyük Vətən müharibəsi" adlanan 1941-1945-ci illərin müharibəsi ilə bağlı döyüşdə iştirak etmək üçün səfərbər edirlər. Beləliklə, Talıb cəbhəyə yollanandan sonra - 1942-ci ildə dünyaya göz açan Səxavətə, atasının üzünü görmək qismət olmur. Belə ki, sovet-alman cəbhəsində müharibə başa çatsa da onun atasından heç bir xəbər çıxmır.

Qələbədən illər keçsə də, anası və özündən üç yaş böyük olan qardaşı ilə birlikdə ümidlərini itirməyən ailənin gözləri yollardan çəkilmir. Amma amansız fələyin saydıqları, bir çox belə ailələr kimi onların da ümidləri ilə üst-üstə düşmür. Beləliklə, eyni aqibəti yaşayan çoxsaylı ailələr kimi onlar da istər-istəməz öz taleləri ilə barışmalı olurlar. O dövrlərdə onsuz da xarakterik olan maddi çətinlik problemi xüsusilə belə başsız ailələr üçün bir qədər də ciddiləşir. Yaşamağın, həyatda qalmağın çətinliyi onları da sıxmağa başlayır. Belə bir şəraitdə təhsilə cəlb olunsalar da, normal təhsil almaq, necə deyərlər, arxa plana keçir. Qardaşlar kiçik yaşlarından analarına köməklik göstərməklə əməyə alışmağa, daha sonra kolxozun əkin-biçin işlərində böyüklərə yardım göstərməklə xərclərini qarşılamağa məcbur olurlar. Bir qədər də yaşa dolandan, gənc yaşlarına yetişəndən sonra isə ehtiyac onları daha böyük, daha ciddi, daha çətin və məsuliyyətli əməyin ağuşuna atır. Hər iki qardaş dağ-aran köçünə, çobanlıq həyatına başlayır. Səxavətin bu yolda itirdikləri olsa da, qazandıqları da az olmur.

Səxavətlə söhbətdən anladım ki, poeziyaya marağında da, iç dünyasında bu duyğuların yaranmasında da əsas rolu elə dağ-aran köçü, köç yolunu istər-istəməz mənzərəli, göz oxşayan, əsrarəngiz təbiətli, tərtəmiz havalı yerlərimizdən, əzəmətli dağlarımızdan salması oynayıb. Amma qeyd olunduğu kimi, həm bu, həm də digər istiqamətlərdə o dövrün çətinlikləri bədii yaradıcılığa olan marağı inkişaf etdirməyə imkan verməyib. Göstərilən səbəblərdən çap imkanlarının ümumiyyətlə olmaması da həvəs baxımından yetərsizlik yaradıb. Sonrakı səbəb isə Ermənistanın ərazilərimizə təcavüz etməsi nəticəsində Səxavət Rəhimovun yaşadığı Cəbrayıl rayonundan, Xələfli kəndindən didərgin düşməsi olub. Onun əlyazmalardan ibarət qoruyub saxlaya bildiyi, eyni zamanda uzun, çox uzun fasilədən sonra, müəyyən şərait və imkan yarandıqca qələmə aldığı digər poeziya nümunələrini çap etdirə bilib. Bu nümunələrin əksəriyyəti isə vətən həsrətinin, yurd nisgilinin məhsullarıdır.

Müəllifin və onun timsalında doğmalarının, bütövlükdə el-obanın 30 ilə yaxın yaşadığı üzüntülərdən, məhrumiyyətlərdən sonra əsasən acılı xatirələrdən ibarət olan "Geridə qalan ömür" kitabı nə yaxşı ki, sonu aydınlıqla bitən yuxuya bənzəyir. Şanlı ordumuz, onunla təkbaşına döyüşməyə gücünün çatmadığı sübut edilən nankor ermənilər, təcavüzkar Ermənistan üzərində tam və qəti qələbə çalır. Qarşıda isə arxalı düşmənin otuz il əvvəl zorla qovduğu, didərgin saldığı yurd yerlərinə böyük qayıdış durur.

Dəyərli oxucuların nəzərinə çatdıraq ki, S.Rəhimov aşağıdakı yurd nisgilli şeirlərini "Geridə qalan ömür" kitabının nəşrindən sonra qələmə alıb.

**Nəriman MAHMUD**
**yazıçı-publisist,**
**Azərbaycan Yazıçılar Birliyinin üzvü**